***Ləman ZÜLQƏDƏROVA*** *

# SOVET-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ KİPR PROBLEMİ

**Açar sözlər:** Türkiyə, SSRİ, siyasi əlaqələr, Kipr problemi.
**Key words:** Turkey, USSR, political relations, Cyprus problem.
**Ключевые слова:** Турция, СССР, политические отношения, кипрская проблема.

XX əsrin 60-cı illərində Türkiyənin xarici siyasətində yeni bir problem yarandı. Bu da Kipr hadisələri ilə bağlı oldu. 1964-cü ildə Kipr ətrafında vəziyyət yenidən gərginləşdi. Kiprdə iki icma arasında toqquşmalardan sonra vəziyyət kəskinləşdi.

Türkiyənin həyati mənafeləri ilə bilavasitə bağlı olan Kipr məsələsində türklərin haqlı tələblərinə Qərb blokundakı müttəfiqlərinin biganə qalmaları, tərəddüd etmələri narazılıqla qarşılanırdı. Belə vəziyyətdə Türkiyənin baş naziri İsmət İnönü 1964-cü il yanvarın 5-də sovet lideri N.S. Xruşşova məktub göndərdi. Səfir F. Korutürk yanvarın 6-da həmin məktubu SSRİ xarici işlər naziri A. Qromıkoya təqdim etdi. Məktubda adada yaranmış vəziyyət şərh edilir, Türkiyənin Kipr adasında yunan mənşəli terroçuların fəaliyyətini dayandırmaq niyyətinin olduğu bildirilirdi (17). Xruşşov fevralın 7-də İnönüyə cavab məktubu göndərdi. Sovetlər Kiprə silahlı müdaxilənin əleyhinə çıxdı. Adaya beynəlxalq qüvvələrin göndərilməsinə etiraz etdi. Bununla belə, Xruşşov sovet dövlətinin adada yaşayan hər iki icmanın hüquqlarının müdafiə edilməsinə, problemin dinc vasitələrlə həllinə tərəfdar, enosisə və terrora isə qarşı çıxdı. Sovet hökumətinin SSRİ ilə Türkiyə arasında münasibətlərin inkişafını arzuladığını bildirdi (8, 70-71).

Başqa bir teleqramı Xruşşov Makariosa göndərdi. Teleqramda deyilirdi: "Kiprin müstəqilliyi və ərazi bütövlüyünün qorunması istiqamətindəki səylərinizdə sizə tam qələbə arzulayıram". Xruşşovun Makariosa teleqramı türk dairələrini hiddətləndirdi. Münasibətlər yenidən gərginləşdi. Nəticədə Türkiyənin xarici işlər naziri F. C. Erkinin Moskvaya planlaşdırılan səfəri təxirə salındı (3).

Bütün ziddiyyətli məqamlarına baxmayaraq, sovetlərin Kipr məsələsində mövqeyi Türkiyə üçün ciddi əhəmiyyət daşıyırdı. Çünki Türkiyə

* **Zülqədərova Ləman** - Gəncə Dövlət Universitetinin doktorantı

belə yanaşmanı indiyədək bir blokda olduğu NATO üzrə müttəfiqlərindən görməmişdi. Sovetlərin adanın enosisinə qarşı çıxması müsbət hal idi. Bununla belə, türk mətbuatı sovet mövqeyini tənqid etməyə başladı. "Milliyet" qəzetində dərc olunmuş "Kipr və sovetlərin mövqeyi" adlı məqalədə yazılırdı: "Azadlıq mübarizəsi dövründə doğulmuş türk-rus dostluğunu Stalin dağıtdı. Sovetlərin səhvi ucbatından Xruşşovun bu dostluğu bərpa edəcəyi yubanır" (1).

Xruşşovun məktubu Ağ evi hərəkətə gətirdi. Bəzi rəsmilər "Kipr problemini həll etməkdən ötrü ABŞ Türkiyəyə etdiyi yardımları azaltmalıdır, onda türklər başlarını aşağı əyib deyilənləri qəbul edəcəklər" söyləyirdilər. Ağ evin mətbuat məsələləri üzrə müşaviri Dru Pirson 1964-cü il fevralın 4-də və martın 4-də "Washington Post" qəzetində çap etdirdiyi məqaləsində "türklərə edilən yardımlar dayandırılsa, onlar ağıllanacaqlar, bundan sonra Kiprə iddia etməyəcəklər" yazırdı. Daha sonra qeyd edirdi ki, yardımların dayandırılması türklərin məhvinə gətirəcəkdir. Türkiyə iflasa uğrayacaqdır. Onda Kipr problemi özü-özündən həllini tapacaqdır. O yazırdı ki, bir zamanlar ABŞ-ın müdafiəsi üçün Türkiyənin böyük əhəmiyyəti olmuşdur. İndi isə ABŞ-ın özünü qorumaq üçün kifayət qədər silahları vardır. Türkiyənin müdafiə qabiliyyətinin möhkəmlədirilməsi yükünü Ağ ev öz üzərinə götürməməlidir. Digər rəsmilər isə "Türkiyəyə yardımların kəsilməsi yoxsulluq və çətinlik gətirəcəkdir. Antiamerikan əhval-ruhiyyə güclənəcəkdir. Türkiyənin dostlarının başında ABŞ durur. Ondan uzaqlaşmaq olmaz" deyirdilər (8, 73). Beləliklə, problemin həlli dalana dirəndi.

Adada qanlı hadisələr nəticəsində yaranmış ağır vəziyyət BMT-də geniş müzakirə edildi. Sovet diplomatiyası adaya NATO qüvvələrinin yeridilməsinin əleyhinə çıxdı. SSRİ 1964-cü il mart ayının 4-də BMT Təhlükəsizlik Şurasının iclasında iki icma arasında qan tökülməsinin qarşısını almaq məqsədi ilə adaya BMT ordularının göndərilməsinə səs verdi. Adada iki icma arasında yaranmış ağır vəziyyət NATO üzvləri olan Yunanıstanla Türkiyə arasındakı münasibətləri kəskinləşdirdi. NATO-nun cənub qanadı xeyli zəifləmiş oldu (18, 67).

Xruşşov 1964-cü il aprel ayının əvvəllərində çıxış edərək "Kipr hadisələrinə kənardan müdaxilənin yolverilməz olduğunu, qan tökülməsinin dayandırılması vacibliyini" bildirdi. Bu bəyanat Türkiyədə rəğbətlə qarşılandı. Xarici işlər naziri Erkin belə mövqeni "nəhayət, bizim böyük qonşumuz həqiqəti görməyə başladı" kimi qiymətləndirdi. Bununla belə, sovetlər hələ də Makariosu müdafiə edirdi. SSRİ Makariosa silah verirdi (3).





Belə bir mürəkkəb siyasi şəraitdə SSRİ-dən ixrac edilən Kommunist təhlükəsi adanın parçalanmasına təsir edən faktorlardan biri idi. ABŞ-ın Kiprdəki səfiri T. Belcher 1964-cü il aprelin 7-də Dövlət Departamentinə göndərdiyi teleqramda Kommunist Partiyasının rəhbərliyi altında Kiprin müstəqil olmasını Türkiyə hökumətinin qəbul etməyəcəyini vurğulayırdı. Türkiyə Kiprin NATO sisteminə girməsinə razı deyildi.

Moskvadan geniş dəstək alan Kipr Kommunist Partiyası olan AKEL (Zəhmətkeşlərin İrəli Tərəqqi Partiyası) Makariosla əməkdaşlıq edirdi. Sov.İKP və AKEL Kiprdə kommunist rejimi qurmağa çalışırdılar. SSRİ Kiprdə kommunist təşkilatını gücləndirirdi. Kiprli yunanları Qərb ölkələrinin əleyhinə yönəldirdi. SSRİ AKEL-in köməyi ilə Aralıq dənizində mövqelərini möhkəmləndirmək, istəyinə çatmaq istəyirdi. Kipr əhalisinin 78,8%-i yunandı. AKEL üzvlərinin 55%-ini yunanlar təşkil edirdi (8, 75).

Qərb bloku ölkələrinin Kipr məsələsində tutduğu mövqe sovetləri hərəkətə gətirdi. İnönü və Gürselin müsahibələrindən sonra Ankaradakı sovet səfiri xeyli fəallaşdı. Səfir Nikita Rıjov xarici işlər naziri Erkin tərəfindən qəbul edildi. Söhbətdə səfir Sovet İttifaqının Türkiyənin iqtisadi inkişafına kömək göstərə biləcəyini söylədi. Səfir daha çox yardımlar, kreditlər, Sovet İttifaqının Türkiyənin maraqlarına zərbə vurmayacağı barədə ifadələr işlətməyə başladı. Erkin sovet səfirinə "Kipr məsələsində Türkiyənin NATO üzrə müttəfiqləri onu tamamilə tək qoydu" dedi (6, 200).

Sovetlərin Kiprin enosisinə qarşı çıxması əbəs deyildi. Yunanıstanın adaya təktərəfli yiyələnməsi ilə regiona NATO hökmran olardı. Nəinki ada, həmçinin Aralıq dənizi tamamilə Qərb blokunun nəzarətinə keçə bilərdi. Sovetlər eyni zamanda adanın Türkiyənin nəzarəti altına keçməsinə də razı deyildi. 1964-cü il mayın 5-də İnönü Moskvanın enosisin əleyhinə olduğunu, sülh və təhlükəsizliyi istədiyini bildirdi (5).

Yunanlar adanın Yunanıstana birləşdirilməsindən ötrü ABŞ və SSRİ-nin razılığını almaq istəyirdi. 1964-cü il sentyabrın 30-da ABŞ dövlət katibi Dean Rusk ilə Vaşinqtonda danışıqlar aparan Kiprin xarici işlər naziri Kiprianu Moskvaya getmək istədiyini, sovetləri incitmək istəmədiyini dedi. Adanın Yunanıstana birləşdirilməsinə ABŞ və SSRİ-nin razılığını verəcəkləri təqdirdə Türkiyənin heç bir hərbi hərəkət etməyəcəyinə zə-

manat verib-verməyəcəyini soruşdu. Səfərinin əsas məqsədinin sovet rəhbərlərinə Kiprin Yunanıstanla birləşdirilməsini izah etmək olduğunu dedi. ABŞ dövlət katibi bunun onun şəxsi işi olduğunu bildirdi. Amma "özünü SSRİ ilə birlikdə hərbi və siyasi təhlükəsizlikdə görmək böyük səhv olacaqdır" dedi. Xüsusi vurğuladı ki, Varşava paktı ilə NATO, SSRİ ilə ABŞ arasında narahatlıq var. Bu, Kipri məhv edə bilər. Kiprianu adaya müdaxilə olacağı təqdirdə SSRİ-nin proseslərə birtərəfli qaydada qarışacını xatırlatdı. Rusk bildirdi ki, Sovet İttifaqının əsas məqsədi başqa insanlar üçün çətinlik və NATO ittifaqı daxilində gərginlik yaratmaqdır. Sovetlər belə hallarda ikiqat və üçqat oyun oynayır. O, SSRİ-nin Türkiyənin enosisə qarşı getməsini təşviq etməsi mümkünlüyünü dedi. Kiprianu Moskvadan qayıtdıqdan sonra Kiprdəki amerikan səfiri Belcherlə görüşərək səfəri barədə məlumat verəcəyini bildirdi. Rusk "sovetlərin müdaxiləsi yalnız Türkiyənin qarşısını almağa xidmət etmir" dedi (8, 91).

1964-cü ilin payızında Kiprianu Moskvaya səfər etdi. O, enosis məsələsində Moskvanın dəstəyinə ümid bəsləyirdi. Moskvadakı görüşlərində Kiprianu adadakı ermənilərin türk zülmündən daha çox əziyyət çəkdiklərini qabartdı. Bununla o, Mikoyanın sovet rəhbərlərindən biri olmasından istifadə edərək erməni məsələsini istismar etmək istəyirdi. Lakin SSRİ xarici işlər nazirinin müavini V.V. Kuznetsov Kiprianuya birbaşa dedi ki, sovet hökuməti Kiprin müstəqil qalmasına üstünlük verir. SSRİ enosisə razı ola bilməz. Bununla belə, Kuznetsov Kipr əhalisinin enosisi qəbul edəcəyi təqdirdə sovet hökumətinin bu seçimə hörmət bəsləyəcəyini də bildirdi. Sovetlərin xalqın enosisi qəbul edəcəyi ilə bağlı düşüncələri türk-yunan ziddiyyətlərini qızışdırıb NATO-nu zəifləmək niyyəti güdürdü (8, 91-92).

Kiprianu Moskvada keçirdiyi danışıqlar barədə amerikan nümayəndə heyətinə ətraflı məlumat verdi. "Kiprin müstəqilliyi, ərazi toxunulmazlığı və suverenliyi kimi məsələlərdə sovetlərin dəstəyinə inandığını" dedi. Kipruanu adada yaşayan kiçik erməni azlığının türklərin əllərindən əziyyət çəkdiyini vurğuladı (22, 342).

1974-cü ilin iyun ayında adada vəziyyət kəskin şəkildə pisləşdi. 1974-cü il iyul ayının 2-də Kipr hökuməti 650 nəfər sui-qəsdçi yunan zabitinin iyul ayının 20-dək adadan çıxarılmasını tələb etdi. Lakin xunta bu tələbi yerinə yetirmədi. Açıq hərbi çıxışlara başladı. İyul ayının 15-də xuntanın göstərişi ilə hərəkət edən, 50-ci illərin ortalarında yaradılmış gizli





EOKA terrorçu təşkilatı hərbi çevriliş etməyə, Kipr hökumətini devirməyə və Makariosu öldürməyə cəhd etdi. Qiyamçılar Nikosiyada və başqa şəhərlərdə hakimiyyəti ələ aldılar. Qiyamın təşkilatçılarından biri olan Samsonu Kiprin prezidenti elan etdilər. Lakin Makariosu öldürmək mümkün olmadı. Adada yaşayan dinc türklərə qarşı kütləvi qətllər həyata keçirildi. Türk əhalisi amansızlıqla məhv edilirdi. Belə şəraitdə adadakı Yunanıstan, Böyük Britaniya və Türkiyə hərbi bazalarında gərginlik yarandı. Kiprdə türklərin fiziki varlığı və adanın mənsubiyyəti üçün təhlükə yarandı. Yunanıstanın təcavüzkarlığı Türkiyəni hərəkətə gətirdi. Türk hökuməti diplomatik addımlar atdı. İyulun 9-da Türkiyənin xarici işlər naziri Turan Güneş Ankaradakı sovet səfiri Vasili Qrubyakovu nazirliyə dəvət etdi. Bir saata qədər davam edən görüşdə Kipr problemi müzakirə edildi. Nazir adanın yunan hərbçilərinin nəzarətinə keçməsinə imkan verilməyəcəyinə dair hökumətinin qəti mövqeyini səfirin diqqətinə çatdırdı. Belə məsləhətləşmələri türk hökuməti Qərb bloku üzrə müttəfiqləri ilə də apardı. İyul ayının 16-da Türkiyə Kiprin statusunun dəyişdirilməsinə imkan verməyəcəyini və Yunanıstanın hərbi müdaxiləsinin qarşısını alacağını bəyan etdi (11).

Yaranmış vəziyyətdə Yunanıstan ümumi hərbi səfərbərlik elan etdi. Ordu hissələrini Türkiyə ilə sərhədə yığdı. Digər dövlətlər də hərəkətə keçdilər. ABŞ və Böyük Britaniya Aralıq dənizinin şərq hissəsində hərbi dəniz qüvvələrini cəmləşdirdilər. ABŞ hökuməti Kiprdə yunan dövlət çevrilişi cəhdini pislədi.

Proseslər adanın Türkiyə üçün itirilməsinə doğru aparırdı. Bu isə təkcə adanın deyil, bütün Aralıq dənizi rayonunda Türkiyənin mövqelərinin sarsıdılması, milli təhlükəsizliyinin təhdid altına düşməsi demək idi. Kipr Tükiyə üçün strateji və təhlükəsizlik məsələsi idi. Türkiyə adanı qətiyyən itirə bilməzdi. Artıq problemin dinc yolla həlli imkanları tükənmişdi. Yunan hərbçilərinin qiyamı nəticəsində Kiprin müstəqilliyi və suverenliyi təhlükə altına düşmüşdü. Türklərə qarşı soyqırım şiddətlənirdi. Türkiyə türklərin məhvinə biganə qala bilməzdi. Küçələrə çıxan türk milləti hayqırırdı: "Yavru vətən dardadır!". "Hökumət yapmazsa, xalq yapar!". Nəhayət, Ecevitin koalisiyalı hökuməti qərar verdi (12, 155).

1974-cü il iyulun 20-də Türkiyə 1959-cu ilin fevral ayında Böyük Britaniya və Yunanıstanla birgə imzaladığı Kipr Respublikasının müstəqilliyi, bütövlüyü haqqında sazişə uyğun olaraq hərəkətə keçdi. Baş nazir

Bülent Ecevit "Ayişə qızımı tətilə göndərin" parolu ilə türk ordusunun adada barış hərəkatına başlamasına razılıq verdi. Hökumətin qərarına uyğun olaraq baş qərargah rəisi S. Sancar ordunun adaya desant çıxarmasını əmr etdi. İyulun 20-də yunanların gözləmədiyi çətin qayalıq yerdən adaya türk ordu hissələrinin desantı çıxarıldı.

Bu zaman Frans Press Agentliyi yaranmış şəraitlə əlaqədar olaraq SSRİ silahlı qüvvələrinin hazırlıq vəziyyətinə gətirilməsi barədə xəbər yaydı. Cavab olaraq Avropadakı NATO silahlı qüvvələri də hazırlıq vəziyyətinə gətirildi. İyul ayının 21-də SİTA Frans Press Agentliyinin məlumatının yanlış olduğunu bildirdi (23).

İyulun 22-də Kiprdə hərbi əməliyyatlar dayandırıldı. Yunanıstanda A. Andruçopulisin rəhbərlik etdiyi hərbi xunta hökuməti ölkə daxilində böhrana, beynəlxalq aləmdə təcridçiliyə düşdüyündən istefaya getdi. Hakimiyyətə K. Karamanlis başda olmaqla mülki hökumət gəldi. Elə həmin gün Kiprin yalançı prezidenti Samson saraydan uzaqlaşdırıldı. Kipr Respublikasının müvəqqəti prezidenti ölkə parlamenti nümayəndələr palatasının sədri G. Kliridis oldu (9, 25).

BMT Təhlükəsizlik Şurasının 353 №-li qətnaməsinin yerinə yetirilməsi dayandırıldı. İyulun 25-də Cenevrədə Yunanıstan, Türki-yə və Böyük Britaniya xarici işlər nazirlərinin görüşü keçirildi. Lakin müzakirələr heç bir nəticə vermədi. Atəşkəs haqqında saziş pozuldu. Xarici ordu hissələri adadan çıxarılmadı.

Belə şəraitdə sovet hökuməti BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırmağı tələb etdi. Təhlükəsizlik Şurasının iclası iyulun 28-29-da toplandı. Sovet hökumətinin bəyanatı təqdim edildi. Bəyanatda yunan hərbçilərinin və onların əlaltılarının yardımı ilə BMT üzvü olan Kipr Respublikasının müstəqilliyi və suverenliyi üçün qorxu yarandığı deyilirdi. NATO-nun müəyyən dairələrinin Aralıq dənizinin şərqində hərbi-strateji mövqelərini möhkəmləndirməyə çalışdıqları qeyd edilirdi. Adada yerləşən xarici hərbi bazaların vəziyyəti daha da kəskinləşdirdiyi, terror və zorakılığın əhali üçün fəlakətli nəticələrə gətirə biləcəyi deyilirdi. Bəyanatda "Samson hakimiyyətdən getsə də, adada hakimiyyət faktiki olaraq qiyamçıların əlindədir" yazılırdı. Göstərilirdi ki, Makarios başda olmaqla qanuni hökumətin öz funksiyalarını həyata keçirməsi üçün şərait yoxdur, Kipr məsələsinə kobud müdaxilə davam edir. Bəyanatda kiprli yunanlara və kiprli türklərə vətənlərində öz talelərini müəyyənləşdirmək hüququnun təmin edilməsi tələb olunurdu. Kipr hökumətinin Cenevrə danışıqlarında iştiraka cəlb olunması, BMT Təhlükəsizlik Şurasının 20 iyul tarixli qətnaməsinin yerinə yetirilməsi, vəziyyəti öyrənməkdən ötrü adaya missiya göndərilməsi təklif edilirdi (23).





1974-cü il 30 iyul tarixdə Türkiyə, Yunanıstan və Böyük Britaniyanın xarici işlər nazirləri döyüşən orduların təhlükəsizlik zonasını və orada yerləşən BMT ordularının xəttini keçməmələri, Kipr Respublikasında silahlı qüvvələrin, silahların və hərbi materialın azaldılması barədə bəyanat qəbul etdilər. Vəziyyət Kiprin bölünməsinədək gəlib çıxdı. Avqust ayının 8-də başlanacaq üçtərəfli danışıqlara türk və yunan icmalarının dəvət olunması tövsiyə edildi.

Avqustun 6-da Kiprdə türk ordusu ilə milli qvardiya arasında demarkasiya xətti müəyyənləşdirildi. İki gün sonra Cenevrədə Kiprin iki icmasının da iştirakı ilə danışıqlar başladı. Danışıqlarda Türkiyə və adanın türk icması Kiprdə iki muxtar kontonun yaradılmasını, Kiprin türk və yunan kontonlarından ibarət federasiya əsasında qurulmasını təklif etdi. Yunanıstan və adanın yunan icması 1960-cı ildə müəyyənləşdirilmiş dövlət sistemini saxlamağı və türk icmasının hüquqlarını genişləndirməyi irəli sürdü. Danışıqlar avqustun 14-də kəsildi. Yunan təcavüzündən dinc türk əhalisini qorumaq məqsədi ilə Türkiyə adada hərbi əməliyyatları genişləndirdi. Bir neçə gün ərzində türk ordusu Kiprin şimal və şimal-şərq rayonlarını Famaqusta, Nikosiya və Levkə xəttinədək tutdu. Ada ərazisinin 40%-i türk ordusunun nəzarətinə keçdi. Bundan sonra adanın şimalındakı yunanlar cənuba, cənubdakı türklər isə şimala köçməyə başladılar. Qaçqın problemi kəskinliyi ilə ortaya çıxdı (9, 38).

Avqustun 16-da BMT-nin köməyi ilə adada atəşkəs haqqında saziş qüvvəyə mindi. NATO ölkələri, ilk növbədə ABŞ Cenevrə danışıqlarına Yunanıstanı qaytarmağa çalışdı. Lakin Yunanıstan danışıqları keçilmiş mərhələ sayaraq etiraz etdi. Yunanıstanda və Kiprdə antiamerikan mitinqləri keçirildi.

Avqustun 22-də sovet hökuməti bəyanatla çıxış etdı. Bəyanatda deyilirdi ki, Kiprdə vəziyyət gərgin olaraq qalır, Kipr Respublikasını müstəqil və suveren dövlət kimi ləğv etmək, onu NATO-nun Aralıq dənizinin şərq hissəsində bazaya çevirmək cəhdləri davam edir. Sovet hökuməti qiyamı pisləyir, xalqın xəbəri olmadan problemin diplomatik cəhdlərlə həllini onun mənafelərinə zidd hesab edirdi. Adada baş verən qanlı qarşıdurmadan, on

minlərlə kiprlinin qaçqına çevrilməsindən narahatlıq hissi keçirilir, bütün bunların ölkənin onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırdığı göstərilirdi. Bəyanatda xarici hərbi müdaxilənin dərhal dayandırılması, xarici orduların çıxarılması və konstitusiya quruluşunun bərpa edilməsinin vacibliyi vurğulanırdı. Bu məsələyə dair verilən bəyanatların real işlə möhkəmləndirilmədiyi göstərilirdi. NATO-nun məhdud çərçivədə və BMT Təhlükəsizlik Şurasında Kipr probleminin həlli cəhdlərinin uğursuzluğu qeyd olunurdu. Sovet hökuməti bunu Sürix-London sazişlərinin iflasa uğraması ilə əlaqələndirir, təminatın əhəmiyyətsiz olduğunu, SSRİ-nin Kiprin müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə hörmət etdiyini göstərirdi. Kipr işlərinə xarici müdaxiləni, problemin zor gücünə həlli cəhdlərini yolverilməz hesab edirdi. Kipr, Türkiyə, Yunanıstan və BMT Təhlükəsizlik Şurasının iştirakı ilə beynəlxalq konfrans çağırılmasını təklif edirdi. Bu konfransın işinə digər dövlətlər, o cümlədən bloklara qoşulmayan ölkələr də dəvət edilə bilərdi. Sovet hökumətinin mövqeyinə görə Kiprin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü qorumağa yönələn, bütün kiprlilərin mənafelərinə cavab verən qərarlar qəbul edilməli idi (24, 135).

Beləliklə, sovetlər problemin iki icma arasında danışıqlar yolu ilə həllindən imtina edərək beynəlxalq konfrans çağırmaq təklifini irəli sürdü. Təklifin səsləndirilməsi əbəs deyildi. Sovetlər konfransın çağırılması ilə problemin həllində əsas dövlətlərdən biri olmaьa çalışırdı. Belə bir təklif SSRİ-nin NATO-nu zəiflətməyə, Aralıq dənizinə enməyə dair ümumi strateji niyyətlərinin tərkib hissəsi idi. Lakin təklif birmənalı qarşılanmadı. BMT çərçivəsində konfrans çağırılması təklifinə Kipr və Yunanıstan hökumətləri tərəfdar, ABŞ, Türkiyə və Böyük Britaniya isə əleyhinə çıxdılar. Çin də eyni mövqeni nümayiş etdirdi. Nəticədə sovet təklifini həyata keçirmək mümkün olmadı (8, 393).

1974-cü ilin sentyabr ayının ortalarında Ankarada SSRİ xarici işlər nazirinin müavini L. F. İliçev baş nazir B. Ecevit və xarici işlər naziri T. Güneşlə Kipr məsələsinə dair ölkələrinin mövqelərini və ikitərəfli münasibətlərin perspektivlərini müzakirə etdilər635. İliçev Kipr məsələsinin suverenliyə, müstəqilliyə, ərazi bütövlüyünə hörmət və Kiprin bloklara qoşulmaması əsasında beynəlxalq konfrans çağırmaqla həll edilməsi vacibliyini vurğuladı. Adadan xarici hərbi qüvvələrin çıxarılmasını irəli sürdü. Ecevit türk ordularının adadan çıxarılmasının heç kəsin ağlına gəlmədiyini vurğuladı.





1975-ci il yanvarın 15-də Kipr problemin həllinə dair icmalararası danışıqlar başladı. Fevralın 10-da Türkiyə Kiprin federativ və konton sistemi əsasında formalaşdırılmasını nəzərdə tutan təklifi təkrar səsləndirdi. Lakin bu təklif qəbul olunmadığından fevralın 13-də adadakı türk icması Şimali Kipr Türk Cümhuriyyətinin yaradıldığını elan etdi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. АВПРФ, ф.132, рефература по Турции, оп.54, папка 173, д. 9, л. 84.
2. АВПРФ, ф.132, рефература по Турции, оп.54, папка 173, д. 9, л. 87.
3. АВПРФ, ф.132, рефература по Турции, оп.54, папка 173, д. 11, л. 203.
4. АВПРФ, ф.132, рефература по Турции, оп.54, папка 173, д. 12, л. 25.
5. АВПРФ, ф.132, рефература по Турции, оп.54, папка 173, д.12, л. 7.
6. Annexation of Cyprus by Great Britain", The American Journal of nternational Law, Cilt 9, No. 1, 1915, p. 204.
7. Ball.Telegram From the Department of State to Seьretary of State Ruck, at the Hague. Washington, May 19,1964. -Foreign Relations of the USA.1964-1968.Vol.XVI. Cyprus, Greece, Turkey, doc.№41, p.87.
8. Qasımlı M. SSRİ -Türkiyə mnasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). I cild. 1960-1979. Bakı, "Adiloğlu" nəşriyyatı, 2007.
9. Hamza E. Kıbrıs Uyuşmazlığı ve Kıbrıs Barış Harekâtı, Ankara, 1975.
10. Heydərova S. Böyük Britaniyanın xarici siyasətində Kipr problemi. (Avtoreferat). Bakı, 2012.
11. Güneş sovyet büyükelçisi Grubyakov ile görüştü.- "Barış" gazetesi, 1974, 10 eylül.
12. Gögtepe C., Tuba Ü.B. İngiliz güvenlik ve dış politikasında Kıbrıs (1945-1974). Bilig. KİS, 2014. Sayı 66. s.141-167
13. İrkiçatal E. İkinci dünya savaşı sonrası İngiltere'nin ortadoğu politikaları için Kıbrıs'ın stratejik önemi ve Kıbrıs meselesinin ortaya çıkışı. Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü DergisiYıl: 2012/1, Sayı:15. s.31-59.
14. Qarayeva. G.İ. Kipr böhranının Türkiyə-ABŞ münasibətlərinə təsiri. Bakı Universitetinin Xəbərləri. №3 Humanitar elmlər seriyası 2014, s.53-59
15. Vatansever. M. Kıbrıs sorununun tarihi gelişimi. Dokuz Eylül Üniversitesi Hukuk Fakültesi Dergisi Cilt: 12, Özel s., 2010, s.1487-1530 Basım Yılı: 2012, s.1487-1530
16. Новейщая история Турции. М.: Наука, 1968.
17. Письмо И.Иненю Н.С.Хрущеву от 5 января 1964 г.-АВПРФ, ф.132, оп.54, папка 172, д.1, л. 4.
18. Поцхверия В.М. Турция и кипрский вопрос. Политика Англии на Влижнем и Среднем Востоке, М.: Наука, 1966.
19. Şükrü S. Gürel, Kıbrıs Tarihi (1878-1960): Kolonyalizm, Ulusçuluk ve Uluslararası Politika, Kaynak Yayınları, Ankara, 1984.
20. Шмаров В.А. Кипр в средиземноморкой политике НАТО. М.: Наука, 1982.
21. "Yeni Sabah" gazetesi, 1964, 2 mart.

22. Memorandum of Conversation.Washington, February 4, 1965.-Foreign Relations of the USA. 1964-1968. Vol.XVI. Cyprus, Greece, Turkey, doc.№175, p. 342.
23. Заявление ТАСС. К событиям на Кипре. - Газ. "Правда", 1974, 21 июля, №202 (20441).
24. Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1974 год, док.№53, с. 134-136.

## CYPRUS PROBLEM IN SOVIET-TURKISH RELATIONS
## SUMMARY

The Cyprus problem from time to time occupied one of the main places in Turkey's foreign policy. In the mid-twentieth century, the Cyprus crisis rose to the agenda again. In 1958, the arbitrariness of the Greeks in Cyprus over the Turks again caused tension. To solve this problem, the UK simultaneously began negotiations with both Greece and Turkey. In accordance with the agreements signed in Zurich and London in 1959, it was decided to create an independent republic in Cyprus. The agreement prohibited enosis and the division of Cyprus and granted the right of the guarantor of Turkey, Greece and the United Kingdom to protect the legal regime in the state. According to this right, each of the guarantors of states could independently enter the island in case of a threat to the regime in Cyprus. In the 1960s, a political and military crisis reappeared in Cyprus. In such a difficult political situation, the USSR strengthened its political and diplomatic participation in resolving the Cyprus crisis within its political interests. The Cyprus problem has always been one of the key ones in the development of foreign relations between Turkey and the USSR.

## КИПРСКАЯ ПРОБЛЕМА В СОВЕТСКО-ТУРЕЦКИХ ОТНОШЕНИЯХ
## РЕЗЮМЕ

Кипрская проблема время от времени занимала одно из главных мест во внешней политике Турции. В середине XX века кипрский кризис вновь встал на повестку дня. Произвол греков над турецким населением в Кипре в 1958 году стал причиной напряженности. Чтобы решить эту проблему Великобритания одновременно начала переговоры и с Грецией, и с Турцией. В соответствии с соглашениями, подписанными в Цюрихе и Лондоне в 1959 году, было решено создать независимую республику на Кипре. Соглашение запрещало энозис и разделение Кипра и предоставляло право гаранта Турции, Греции и Великобритании для защиты законного режима в государстве. Согласно этому соглашению, каждый из гарантов-государств мог самостоятельно вступить на остров в случае угрозы режиму на Кипре. В 60-е годы на Кипре вновь возник политический и военный кризис. В такой сложной политической ситуации СССР в рамках своих интересов усилил политическое и дипломатическое участие в урегулировании кипрского кризиса. Кипрская проблема всегда была одной из ключевых в развитии внешнеполитических отношений между Турцией и СССР.